**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YAVUZ AKPINAR VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI PROBLEMLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Pərvanə Natiq qızı Kərimova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Təyyar Salam oğlu Cavadov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |
| | filologiya elmləri doktoru, professor<br>**Sənan Məmmədəli oğlu İbrahimov** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Könül Sabir qızı Bağırova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | filologiya elmləri doktoru, professor<br>**Seyfəddin Gülverdi oğlu Rzayev** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | filologiya üzrə fəlsəfə doktoru<br>**Nizami Şamil oğlu Adışirinov** |
| Elmi seminarın sədri: ________________ | filologiya elmləri doktoru, dosent<br>**Leyla Kamran qızı Məmmədova** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Yavuz Akpınar Azərbaycan ədəbiyyatı ilə bağlı Türkiyədə apardığı çoxcəhətli tədqiqatlarla ədəbi-mədəni irsimiz haqqında zəngin irs yaratmışdır. Bu baxımdan, "Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" mövzusunun öyrənilməsi, ilk növbədə, müstəqillik dövrünün ədəbiyyatşünaslığımız qarşısında qoyduğu mühüm vəzifələrdən biridir. Yavuz Akpınarın tədqiqatlarında qədim tarixə və böyük ənənələrə sahib Azərbaycan ədəbiyyatı forma və məzmun baxımından öyrənilmiş və Türkiyədə geniş auditoriyaya təqdim edilmişdir. O, Azərbaycan xalqının keçdiyi çoxəsrlik yolu, mübarizə əzmini, xalqın taleyini dəyişdirən və gələcək yolunu müəyyənləşdirən aktual məsələləri tədqiq etmiş, araşdırmışdır. Yavuz Akpınarın tədqiqatlarının ideya-estetik mahiyyəti ilk dəfə sistemli şəkildə bu dissertasiyada öyrənilmişdir. Dissertasiya işində Yavuz Akpınarın tədqiqatları əsasında Azərbaycan ədəbiyyatının ideologiyadan uzaq tədqiqinə, Rusiya türkləri ilə Azərbaycan ədəbiyyatının qarşılıqlı əlaqəsinə, Mühacirət irsinin, eləcə də Türkiyə-Azərbaycan və Cənubi Azərbaycan əlaqələrinin öyrənilməsinə, Azərbaycan ədəbiyyatının bir bütün halında araşdırılması baxımından aktual olan bir sıra məsələlərə aydınlıq gətirilmişdir ki, bu problemlər tədqiqat işinin aktuallığını və əhəmiyyətini artırır.

Məlumdur ki, Azərbaycan ədəbiyyatşünaslığı, ədəbiyyat tarixçiliyimiz sovet dövründə böyük yol keçmişdir. Bu illərdə ədəbiyyat tariximizin çox zəngin bir inkişaf yolu keçməsi, sovet ədəbiyyatşünaslığının siyasi rejimin ideoloji tendensiyalara bağlı olması, aparılan tədqiqatların əsas istiqamətinin bu tendensiyalara söykənməsi də mübahisə doğurmayan həqiqətdir. Müstəqillik dövrünün ədəbiyyatşünaslığımız qarşısında qoyduğu məsələlərdən biri də sovet dövründə formalaşmış ədəbiyyatşünaslıq ənənələrinin ideoloji tərəflərinə tənqidi yanaşmağın zərurətidir. Problemin bu cür qoyuluşu, sovet dövrü ədəbiyyatşünaslıq ənənələrindən imtina etmək mənasında yox, yeni dövrün astanasından ədəbiyyata müasir dövrün gözü ilə baxmağın vacibliyini özündə ehtiva edir. Həmin

zərurət, eyni zamanda, ədəbiyyatımızın keçdiyi tarixi inkişaf yoluna yeni metodoloji baxış axtarışlarını qaçılmaz edir. Bu baxımdan, Yavuz Akpınar apardığı çoxtərəfli tədqiqatlar bizim üçün zəngin elmi baza rolunu oynamaqdadır. "Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" mövzusunda dissertasiya işi məhz bu baxımdan da aktuallıq kəsb edir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığının metodoloji əsaslarının müəyyənləşməsində Türkiyə ədəbiyyatşünaslarının, eləcə də mühacirət həyatı yaşayan milli ziyalıların ədəbiyyatımızla bağlı apardıqları tədqiqatların mühüm rol oynaya biləcəyi vurğulanmaqdadır.

*Məsələn, prof. T.Salamoğlu Sabir irsinə münasibətdə "elmi-nəzəri və metodoloji dəyərləndirmə"[1]nin istiqamətləri içərisində türk, eləcə də mühacirət ədəbiyyatşünaslığında Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmaların metodoloji dəyərini önə çəkir.*

Müstəqillik dövründə yaranan ədəbiyyat araşdırmalarında məsələyə bu kontekstdən baxış ədəbiyyatşünaslığımızda get-gedə güclənməkdədir. İsa Həbibbəyli[2], Bədirxan Əhmədov[3], Abid Tahirli[4], Şahbaz Musayev[5], Nikpur Cabbarlının[6] tədqiqatlarında ədəbiyyat tariximizin mühacirət dövründə aparılmış araşdırmalar, problemlərə münasibətlər bu gün üçün də aktualdır. Bu gün mühacir tədqiqatçıların araşdırmaları və Sovet dövründə yaranan və tədqiq edilən ədəbiyyata münasibətlər, həmin dövrün irsinə münasibət yeni prizmadan özünü göstərməkdədir.

Yavuz Akpınarın Azərbaycan ədəbiyyatı ilə bağlı

---

[1] Salamoğlu, T. Azərbaycan tənqidi realizminin estetikası. (C.Məmmədquluzadə və M.Ə.Sabir estetikası əsasında) / T.Salamoğlu. − Bakı: − Orxan, − 2018, − 165 s.

[2] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ. Həbibbəyli. − Bakı: − Elm, − 2019, − 452 s.

[3] Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi / B.Əhmədov. − Üç cilddə, − I cild. − Bakı: Qanun nəşriyyatı, − 2024, − 544 s.

[4] Tahirli, A. Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri / A.Tahirli.− Bakı: − Tural-Ə, − 2001, – 344 s.

[5] Musayev, Ş. Azərbaycan Mühacirət irsi. (nəsr və ədəbiyyatşünaslıq) / Ş. Musayev. – Bakı: − Elm və Təhsil, − 2023, − 332 s.

[6] Cabbarlı, N. Azərbaycan mühacirət nəsri / N.Cabbarlı. − Bakı: − Elm və təhsil, − 2011, − 138 s.

araşdırmaları ədəbiyyat tariximizin bütün dövrlərini əhatə edir. Siyasi-ideoloji basqıdan kənar bir müstəvidə, elmi düşüncənin heç bir basqıya məruz qalmadığı Türkiyə ədəbi-elmi mühitində aparılmış tədqiqatlar bilavasitə ədəbi-bədii əsərlərin mahiyyətini meydana çıxarmağa istiqamətləndiyi üçün elmi həqiqətin ifadəsinə çevrilə bilir, müasirliyini, aktuallığını qoruyub saxlayır.

Məhz bu mənada Yavuz Akpınarın ədəbiyyatımızın müxtəlif tarixi dövrləri ilə bağlı tədqiqatları metodoloji aspekti və meydana çıxardığı elmi dəyərlərlə müstəqillik dövrü ədəbiyyatşünaslığımız üçün müəyyən təcrübə rolunu oynayır və mövzunun aktuallığını bir daha təsdiq edir.

*Mövzunun öyrənilmə dərəcəsi* barəsində qeyd etməliyik ki, Yavuz Akpınarın Azərbaycan ədəbiyyatının başlanğıcdan müasir dövrə kimi apardığı tədqiqatlar haqqında elmi araşdırmaları bir bütün halında ilk dəfədir ki, öyrənilir. Müraciət etdiyi mövzular bu gün də aktuallığını qoruyaraq, aparılan tədqiqatlarda əsas ədəbiyyat rolunu oynamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Yavuz Akpınarın Azərbaycan ədəbiyyatı ilə bağlı yazdığı və tərtib etdiyi kitablar, məqalələr, konfrans materialları təşkil edir. Müəllifin "Azeri edebiyyatı araştırmaları" kitabı, "Mirza Feth-Ali Ahund-zadə. (Bütün yönleriyle)" dissertasiya işi, "Yeni kafkasya", " Bayraklaşan Şəhsiyet. Mehmet Emin Resulzade", "Mehmet Emin Resulzade. Seçilmiş eserleri", "Azerbaycan Cümhuriyyəti; Keyfiyet-i Teşekkülü ve Şimdiki Vaziyəti" kitabları, Ortaq dil, Cənubi Azərbaycan, XIX-XX əsr Azərbaycan ədəbiyyatı və başqa mövzularda qələmə aldığı bir çox araşdırmaları elmi işin təkmilləşdirilməsində mühüm elmi mənbə rolunu oynamışdır.

Dissertasiya işinin predmetini isə Sovet dövrü və müstəqillik dövründə Azərbaycan ədəbiyyatında aparılan tədqiqatlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Yavuz Akpınarın Azərbaycan ədəbiyyatına dair tədqiqatlarında Türkiyə ədəbiyyatşünaslığının ədəbiyyatımızı metodoloji və elmi nəzəri düşüncə sistemi zəminində araşdırmaya cəlb etmək cəhdləri qarşıya qoyulan əsas məqsədlərdən biridir. Buna əsasən deyə

bilərik ki, Türkiyəli ədəbiyyatşünasların məsələlərə yanaşma sistemi ilə Azərbaycan ədəbiyyatşünaslığında problemlərə verilən elmi-nəzəri və metodoloji fərqləri aşkarlamaq, Yavuz Akpınarın tədqiqatlarının timsalında ədəbiyyat tariximizin keçdiyi yola münasibət bildirmək əsas istiqamətdir. Bu gün müasir səslənən baxış sisteminin səciyyəsini üzə çıxarmaq, ümumiləşdirmək, beləliklə, gələcək tədqiqatlar üçün metodoloji və elmi-nəzəri əsas verən məsələlərə diqqət çəkməkdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri sayılmışdır:

– Yavuz Akpınarın Azərbaycan ədəbiyyatına dair araşdırmalarında ədəbiyyatımızın müxtəlif tarixi dövr və mərhələlərinə dair mülahizələrini tədqiq etmək, ümumiləşdirmək, özünəməxsusluqları müəyyənləşdirmək;

– Azərbaycan ədəbiyyatı tarixinin araşdırılmasında türk ədəbiyyatşünaslıq ənənələrinin yerini təyin etmək;

– Ədəbiyyat tarixinə baxış sistemində Azərbaycan sovet ədəbiyyatşünaslığının təsirlərini aşkarlamaq;

– Azərbaycan ədəbiyyatı tarixinə dair aparılan tədqiqatlarda üzə çıxan metodoloji baxışların əsas cəhətlərini ümumiləşdirmək;

– Azərbaycan ədəbiyyatının başlanğıc tarixi ilə bağlı Yavuz Akpınarın elmi mövqeyinə aydınlıq gətirmək;

– Azərbaycan ədəbiyyatının başlanğıcının “ümumtürk ədəbiyyatı”ndan başlayan konsepsiyaya alimin münasibətini izləmək;

– Yavuz Akpınarın prototürk mədəniyyəti ilə bağlı mülahizələrini ümumiləşdirmək, ədəbiyyatımızın başlanğıcında bu mədəniyyətin yerinə dair mülahizələrinin müasir ədəbiyyatşünaslıq tədqiqatları ilə səsləşən və səsləşməyən tərəflərinə aydınlıq gətirmək;

– Yavuz Akpınarın elmi düşüncəsində “ümumtürk ədəbiyyatı” konsepsiyasının mürəkkəb məzmununu açmaq. Bu konsepsiyanın türk xalqları ədəbiyyatlarının ortaq başlanğıcı məzmunundan əlavə, differensiallaşmadan sonrakı dövrlərdə türk xalqları ədəbiyyatlarının ümumi dəyərlərinin öyrənilməsi, əsas xəttin axıra qədər izlənilməsi zəminində təqdiminin mahiyyətini şərh etmək;

– Tədqiqatçının “Bütöv Azərbaycan ədəbiyyatı” konsepsiyasının araşdırmalarında üzə çıxan nəticələrinə diqqət çəkmək;

– Azərbaycançılıq konsepsiyasına ədəbiyyatımızın müxtəlif tarixi dövrlərində fərqli baxışlara münasibətini aydınlaşdırmaq;

– Azərbaycan – Türkiyə ədəbi əlaqələrinə “ortaq dəyərlər” prizmasından olan yanaşmalara aydınlıq gətirmək;

– Azərbaycan – Türkiyə ədəbi əlaqələrinə “türkçülük” və “azərbaycançılıq” müstəvisindən verilən şərhlərin metodoloji xarakterini açmaq.

**Tədqiqat işinin metodları.** Tədqiqat tarixi-müqayisəli və elmi-analitik təhlil metodlarına istinadla yazılmışdır. Eyni zamanda müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığının klassik irsə, ədəbiyyat tariximizin keçdiyi inkişaf yoluna verdiyi elmi dəyərləndirmələr, metodoloji üsul və prinsiplər də əsas götürülmüşdür. Tədqiqatın xarakteri Türkiyə ədəbiyyatşünaslığında ədəbi-tarixi prosesə elmi yanaşma və metodoloji dəyərləndirmə üsullarından istifadəyə imkan vermişdir. Bütün bunlarla bərabər, dünya ədəbiyyatşünaslığında bu istiqamətdəki tədqiqatların məsələləri analiz və dəyərləndirmə üsullarından da yararlanılmışdır.

Tədqiqat zamanı Yavuz Akpınarın araşdırmaları əsas götürülsə də, Azərbaycan ədəbiyyatından bir çox alimin tədqiqatlarına da istinad edilmiş, Nizami Cəfərov[7], İsa Həbibbəyli[8], Bədirxan Əhmədov[9], Şahbaz Musayev[10], Leyla Məmmədova[11],

---

[7] Cəfərov, N. Azərbaycanşünaslığın əsasları / N.Cəfərov − Təbriz: Alp, − 2007, − 292 s.

[8] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ. Həbibbəyli. − Bakı: − Elm, − 2019, − 452 s.

[9] Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi / B.Əhmədov. – Bakı: − Qanun nəşriyyatı, - 2025. − 2c., − 585 s.

[10] Şamıoğlu, Ş. Azərbaycan Mühacirət irsi. Nəsr və ədəbiyyatşünaslıq / Ş.Şamıoğlu. −Bakı: − Elm və təhsil, − 2023, − 332 s.

[11] Məmmədova, L. Mirzə Fətəli Axundzadə və müasirlik / L.Məmmədova. − Bakı, − 2018, − avtoref., − 50 s.

Abid Tahirli[12], Sənan İbrahimli[13], Tahirə Məmməd[14], Nikpur Cabbarlı[15], Elman Quliyev[16], Təyyar Salamoğlu[17] və bir çox başqa tədqiqatçıların araşdırmaları əsasında dissertasiya işi təkmilləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

Sovet dövründə Azərbaycan ədəbiyyatşünaslığı çox mühüm tarixi bir inkişaf yolu keçmişdir. Lakin bu inkişafın metodoloji əsasında ideoloji tendensiya dayandığı üçün müstəqillik dövründə ədəbiyyatımızın keçdiyi tarixi yolun elmi-nəzəri və metodoloji dəyərləndirilməsi zərurəti yaranmışdır;

Müstəqillik dövrünün ədəbiyyatşünaslığı bu istiqamətdə ardıcıl axtarışlar aparmaqda və bir sıra ciddi uğurlar qazanmaqdadır.

Müstəqillik dövrünün elmi-nəzəri düşüncəsi ədəbiyyatşünaslığımızın keçdiyi tarixi yola fərqli yanaşmağı, analitik təhlil üsulu əsasında onun estetikliyə və siyasi-ideoloji tendensiyaya söykənən tərəflərini fərqləndirmək zərurətini önə çəkir;

Müstəqillik dövrünün ədəbiyyatşünaslığı ədəbiyyatımızın keçdiyi tarixi yola sovet ədəbiyyatşünaslığından kənar mühitlərdə meydana çıxan baxışları öyrənmək, ümumiləşdirmək qənaətindən çıxış edir və metodoloji əsasın müəyyənləşməsində bu mövqelərdən də yararlanmağın sağlam nəticələrə gəlmək üçün müəyyən perspektivlər açması qənaətindədir;

Müstəqillik dövrünün ədəbiyyatşünaslığı üçün Türkiyə

---

[12] Tahirli, A. Azərbaycan mühacirət mətbuatı, II hissə / Abid Tahirli. − Bakı: −Ozan, − 2003, − 2 c., 276 s.

[13] İbrahimli, S. Klassik Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində / S.İbrahimli − Bakı: − Bakı Universiteti, − 2006, − 271s.

[14] Məmməd, T. XIX əsr Azərbaycan ədəbiyyatı / T.Məmmədli. −Bakı: − Apostrof, − c.1, − 2010, − 161 s.

[15] Cabbarlı, N. XX əsr Azərbaycan mühacirət ədəbiyyatı (türkdilli örnəklər əsasında) / N. Cabbarlı. − diss. − Bakı: − 2017, − 256 s

[16] Quliyev, E. Seyid Məhəmmədhüseyn Şəhriyar / E.Quliyev. – Bakı: Mütərcim, −1999, − 180 s.

[17] Salamoğlu T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: − Elm, − 1998, − 100 s.

mühitində Azərbaycan ədəbiyyatına dair aparılmış tədqiqatlar ideoloji basqıdan kənar olduğu üçün metodoloji baxımdan daha mötəbər sayıla bilər. Bununla bərabər, həmin baxışlara tənqidi surətdə yanaşmağı vacib hesab edirik;

"Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" mövzusu, ilk növbədə, metodoloji istiqaməti ilə Azərbaycan ədəbiyyatşünaslığı üçün aktual və müasir hesab edilə bilər;

Yavuz Akpınarın ədəbiyyatımızın tarixi başlanğıcı, dövrləşdirilməsi, ayrı-ayrı dövrlərin elmi səciyyəsi ilə bağlı irəli sürdüyü fikirlərdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatsünaslığı üçün müasir səslənən əsaslı müddəalar vardır;

Tədqiqatçının ədəbiyyatımızın başlanğıcını "ümumtürk ədəbiyyatı" kontekstində araşdırmaları, eyni zamanda başlanğıc tarixini "prototürk mədəniyyəti"nə qədər inkişaf etdirməsində müasir milli ədəbiyyatşünaslıq üçün maraqlı olan əsaslı səmərəli cəhətlər vardır;

Yavuz Akpınarın "ümumtürk ədəbiyyatı"nı ancaq dil, areal ortaqlığı müstəvisindən çıxarıb fikir, düşüncə birliyi məsələlərinə bağlaması onun Mehmet Fuad Köprülünün konsepsiyasını metodoloji cəhətdən daha da inkişaf etdirməsinin əsas faktoru sayıla bilər. Eyni zamanda, "ümumtürk ədəbiyyatı" kontekstini yalnız, türk xalqları ədəbiyyatının başlanğıc mərhələsinə aid olan məsələ olmaqdan çıxarıb differensiallaşmadan sonra da – anadilli ədəbiyyat müstəvisində gerçəkləşdirmək zərurəti haqqında qənaətləri kifayət qədər elmi əsasa malikdir;

Yavuz Akpınarın ədəbiyyatımızın müstəqillik dövründə azərbaycançılıq konsepsiyası əsasında tədqiqi ilə sovet dövründəki "azərbaycançılıq" baxışları arasındakı əsaslı fərqləri müəyyənləşdirməsi elmi-nəzəri və metodoloji cəhətdən tam müasir mövqedir.

Tədqiqatçının "azərbaycançılıq" konsepsiyasını türkçülük və "bütöv Azərbaycan" anlayışları ilə birgə qəbul etməsi müasir ədəbiyyatşünaslığımız üçün perspektivli bir istiqamətin əsası kimi düşünülə bilər.

**Tədqiqatın elmi yeniliyi.** "Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" mövzusu problemin qoyuluş istiqaməti ilə

yenidir. Çünki problemin elmi həlli bütövlükdə və geniş mənada Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna türk ədəbiyyatşünaslığının konseptual baxış sisteminin ifadəsini nəzərdə tutur.

Yavuz Akpınarın Azərbaycan ədəbiyyatı ilə bağlı apardığı çoxcəhətli araşdırmaların, tərtib etdiyi kitabların müstəqil Azərbaycan ədəbiyyatşünaslığının gözü ilə araşdırılması, müəyyən müqayisələrin aparılması işin elmi yeniliyini şərtləndirir.

Mövzunun qeyri-ənənəvi üsulla işlənməsi, təsvirçilikdən uzaqlığı, Yavuz Akpınarın Azərbaycan ədəbiyyatına yanaşmalarının bütövlükdə metodoloji müstəvidə tədqiqi də işin elmi yeniliyinə verdiyi töhfələrdir.

Eyni zamanda, tədqiqatın polemik mövqedən işlənməsini vurğulamaq lazım gəlir. Tədqiqatda Yavuz Akpınarın tədqiqatları fərqli metodoloji sistemlərin qarşılaşdırılması müstəvisində analiz edilir. Azərbaycan ədəbiyyatının tarixinə Türkiyə ədəbiyyatşünaslığı müstəvisindən baxışın əsas aspektlərinin müəyyənləşdirilməsi, məsələyə Türkiyə ədəbiyyatşünaslığının baxış sistemi ilə (prinsip etibarı ilə heç bir basqı altında olmayan, ədəbiyyatşünaslıq düşüncəsinin tam müstəqil olduğu bir elmi mühitin baxışları ilə) sovet ədəbiyyatşünaslıq düşüncəsinin müqayisəsi zəminində məsələlərə verilən elmi qiymətlər, eyni zamanda, tədqiqatçının həm birinci, həm də ikinci düşüncə sisteminə tənqidi yanaşmaları, türk ədəbiyyatşünası kimi Yavuz Akpınarın məsələlərə baxışlarındakı orijinal, metodoloji və elmi-nəzəri cəhətdən düzgün olan mövqelərin müəyyənləşdirilməsi, bununla belə, alimin tədqiqatlarında Azərbaycan sovet ədəbiyyatşünaslığından gələn təsirlərin əsaslı şəkildə fərqinə varılması, bunun səbəblərinin onun daha çox sovet ədəbiyyatşünaslıq materiallarına istinaddan gəlməsi ilə bağlı mülahizələr, bütün bu dəyərləndirmələrə müstəqillik dövrü ədəbiyyatşünaslığı mövqeyindən verilən qiymətlər bütövlükdə tədqiqatın orijinal məzmununu şərtləndirir və elmi yeniliklərini meydana qoyur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi türk ədəbiyyatşünaslığının Azərbaycan ədəbiyyatının tarixi inkişaf

yoluna baxış bucağını, bu ədəbiyyatşünaslığın elmi-nəzəri və metodoloji təəcrübəsini ümumiləşdirməyə imkan verir. Bu da Azərbaycan ədəbiyyatşünaslığında türk ədəbiyyatşünaslıq ənənələrindən yaradıcı və tənqidi surətdə istifadə etmək imkanı yaradır.

Tədqiqatın nəzəri əhəmiyyəti, ilk növbədə, işin bu istiqaməti ilə müəyyənləşir. Digər tərəfdən, Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna türk ədəbi-nəzəri fikrinin tarixi və çağdaş səviyyəsindən baxış Azərbaycan ədəbiyyatşünaslığında (xüsusən Azərbaycan sovet ədəbiyyatşünaslığında) elmi-nəzəri və metodoloji istiqamətlərdəki boşluqları (eyni zamanda, qüsurları) görmək imkanı yaradır və müstəqillik dövrünün tədqiqatçılarının yeni ədəbiyyatşünaslıq düşüncəsinin formalaşması üçün təkan olur. Bu cəhət də işin nəzəri əhəmiyyətini təsdiq edir.

Tədqiqatın nəzəri əhəmiyyətini təyin edən cəhətlərdən biri də budur ki, Azərbaycan ədəbiyyatının müasir problemlərinin həllində gələcək tədqiqatçılar üçün elmi-nəzəri və metodoloji baza rolu oynaya bilər.

Ali məktəblərdə tədris edilən bəzi fənlərə dair dərslik və dərs vəsaitlərinin yazılmasında, Azərbaycan ədəbiyyatı tarxinə dair tədqiqatların işlənməsində, habelə bilavasitə tədris prosesində tədqiqat işinin nəticələrinə istinad etmək olar. Bu cəhət dissertasiya işinin praktik əhəmiyyətini müəyyənləşdirir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Bakı Mühəndislik Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında hazırlanmışdır. Dissertasiyanın mövzusu Qafqaz Universitetinin (indiki Bakı Mühəndislik Universitetinin) Elmi Şurasının 19.02.2016-cı il (QU-15000-000/) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının 27 may 2016-cı il tarixli (protokol №4) iclaslarının qərarları ilə təsdiq olunmuşdr.

Mövzu və plan-prospekt Qafqaz Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında müzakirə edilmişdir.

Tədqiqat işinin illik nəticələri Qafqaz Universitetinin, sonrakı illərdə isə Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasında müzakirə edilmiş, hər bir tədris ilinə dair

doktorantın hesabatları qəbul edilmişdir.

Dissertasiya işinin əsas nəticələri respublika və beynəlxalq elmi konfrans materiallarında, Azərbaycanda və xarici ölkələrin AAK-nın tövsiyə etdiyi məcmuə və jurnallarında çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat**. Tədqiqat işi Bakı Mühəndislik Universitetinin "Azərbaycan dili və pedaqogika" kafedrasında yerinə yetirilmişdir. Müəllifin dissertasiya işində əldə etdiyi əsas nəticə və yeniliklər ölkə daxilində və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarında çap olunan məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 11 səhifə, 15387 işarə, I fəsil 40 səhifə 76957 işarə, II fəsil 32 səhifə 57487 işarə, III fəsil 52 səhifə 95485 işarə , Nəticə hissəsi 6 səhifə 11664 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 256334 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı, öyrənilmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, öyrənilmə metodları, müdafiəyə çıxarılan müddəaları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiya və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrin ayrılıqda həcmi və işarə sayı haqqında məlumat verilir.

Dissertasiyanın **"Yavuz Akpınar klassik ədəbiyyatın əsas araşdırıcısı kimi"** adlanan I fəsli iki yarımfəsildən ibarətdir.

Birinci fəslin **"Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı Yavuz Akpınarın tədqiqatlarında"** adlı ilk yarımfəslində Yavuz Akpınar Azərbaycan ədəbiyyatına, onun yaranma tarixinə protortürk ənənələrinin yarandığı ilk gündən bu günə qədər olan dövrə ədəbi-nəzəri yanaşmalarını elmi müstəvidə əks etdirir.

Dövrlər və mərhələlər arasındakı əlaqə, ədəbiyyatın öz içərisində

parçalanması və inkişafı, irs-varislik əlaqələri, ədəbiyyatşünaslığa metodoloji yanaşmalar fərqli aspektlərdən aparılmış təhlillər, təqdim olunan nəzəriyyələr yekun həllini tapmamışdır. Bu nəzəriyyələrin əsas konsepsiyasını klassik dövr Azərbaycan ədəbiyyatı nümunələrinin tədqiqi təşkil edib, klassik mədəni irsimizin böyük bir hissəsini birləşdirir. Diskussiyaya səbəb olan məsələlər həm şifahi xalq ədəbiyyatı, həm də yazılı ədəbi nümunlər işığında verilmişdir.

Tədqiqat işinin mahiyyətindən müəyyən olunur ki, bu dövr ədəbiyyatı ilə bağlı araşdırmalar yekunlaşmayıb, bugünkü gün də davam etməkdədir. "*Yavuz Akpınarın qaldırdığı məsələlərin çoxu çağdaş Azərbaycan ədəbiyyatşünaslığının gündəmindədir*".[18]

Mübahisəyə səbəb olan əsas məsələ proto-türk mədəniyyəti izlərinin göründüyü ən qədim dövrlərdən, sinkretizmin pozulmasına qədərki dövr, fərdin ön plana keçib ərəb, farsdilli ədəbi nümunələrin yarandığı dövrdən anadilli ədəbi nümunələrin yarandığı dövrə kimi olan mərhələlər müzakirə müstəvisində tədqiq edilmişdir.

Yazıçı kimliyinin müəyyənləşməsi özü də mübahisəyə zəmin yaradan bir məsələdir. Bir sıra tədqiqatçılar dil amilini əsas olaraq götürsə də, yazıçı kimliyinin, milli mənsubiyyətinin müəyyənləşməsində düşüncə, dil, yaşadığı ərazı faktoru kimi nüansları diqqətdə saxlayaraq məsələyə yanaşmaq problemin həlli baxımından vacibdir.

Akademik İsa Həbibbəyli yazır: "*Müasir dövrdə Azərbaycan yazılı ədəbiyyatı tarixinin başlanğıc dövrünün, ilkin yazılı mərhələsinin müəyyən olunmasında ortaq ədəbiyyata istinad etmək və bu ümumi mədəniyyətdə xalqın özünəməxsus payını ayırd edərək dəyərləndirmək məqbul elmi prinsip hesab olunur".*[19] Yavuz Akpınar tədqiqatlarında bu elmi prinsipə sadiq qalmış, ortaq ədəbiyyat anlayışını elmimizin inkişafı baxımından vacib hesab etmişdir.

Ədəbiyyatın əsas başlanğıcının ortaq ədəbi nümunələrə əsaslanması prinsipi ilə yanaşı unutmaq olmaz ki, hər bir

---

[18] XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Red. hey: B. Nəbiyev, Ş. Alışanlı, T. Kərimli və b. – Bakı : − Elm, - c. 1: − 2006. – 81 s.

[19] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ. Həbibbəyli. − Bakı: − Elm, − 2019, − 147 s.

ədəbiyyatın yazılı nümunələrinin meydana çıxması ilə yaranan milli bir qolu da var.

Dövrlər və mərhələlər arasındakı əlaqə, ədəbiyyatın öz içərisindən parçalanaraq inkişafına, irs-varislik əlaqələrinə, ədəbiyyatşünaslıqda metodoloji məsələlərə münasibət bildirmişdir. Həm şifahi xalq ədəbiyyatı həm də yazılı ədəbiyyatda diskussiyaya səbəb olan problemləri incələmiş, gələcəkdəki araşdırmalara gedən yolun əsasını, baza prinsiplərini müəyyənləşdirmişdir.

"*Azərbaycan yazılı ədəbiyyatının tarixinin müəyyən olunmasında müxtəlif meyarlara istinad edilmişdir ki, bunların da içərisində aşağıdakı prinsiplər əsas yer tutur:*

*1. Anadilli milli ədəbiyyat faktoru;*

*2. Ortaq türk yazılı mətnlərinə istinad olunması;*

*3. Harada yaşamasından, hansı dildə yaranmasından asılı olmayaraq, milliyyət etibarilə azərbaycanlı olan qələm sahiblərinin əsərlərinin meydana çıxması;*

*4. Milli mədəniyyətdə müəllif faktorunun nəzərə alınması*".[20]

Dil və areal amilinin eləcə də digər amillərin yazıçı kimliyinin müəyyənləşməsində oynadığı rola münasibət, Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası işığında tədqiq edilmişdir.

Qədim dövrdən fərqli olaraq orta əsrlər Azərbaycan ədəbiyyatında bu problem bir az da olsa azalmışdı. XIII əsrdən başlayaraq, türk boylarının bu ərazidə artması, "*Azərbaycan ədəbi dilinin ortaya çıxmasına əlverişli və lazımlı zəmin hazırladı*".[21]

Ərəb və fars dili ilə yanaşı Azərbaycan dilində yazan sənətkarlar yetişdi və zamanla Azərbaycan dili hakim dilə çevrilirdi.

Yavuz Akpınar bu mərhələni xalq ədəbiyyatı, aşıq ədəbiyyatının dönüm nöqtəsi olaraq qiymətləndirirsə, Azərbaycanlı tədqiqatçılar bu zaman zərfini daha çox romantizmdən realizmə keçid, real duyğu və düşüncələrin, həqiqi gözəlin təsvirinin ədəbiyyatda əksi olaraq qiymətləndirirlər. Akademik İsa Həbibbəyli dövrləşdirmə konsepsiyası apararkən bu dövrləri yeni bir mərhələ

---

[20] Azərbaycan ədəbiyyatı tarixi / [10 cilddə], −2 c., −Bakı: − Elm, − 2020, − 8 s.

[21] Akpınar, Y . Azeri edebiyyatı araştırmaları / A. Yavuz. − Erzurum: − Dergah yayınları,− 1994, − 17 s.

olaraq qiymətləndirir. *"Azərbaycan ədəbiyyatı XVII-XVIII əsrlərdə forma və məzmunca ciddi yeniləşmə meyillərini nəzərə çarpdıran yeni bir dövrə qədəm qoymuşdur. Bu, Azərbaycan ədəbiyyatının erkən realizm mərhələsidir".*[22]

Azərbaycanda xanlıqların yaranmasının ədəbi mədəni həyata təsiri, ədəbiyyatda yaranan cərəyanlar və ədəbi məktəblər, onların nümayəndələri haqqında verdiyi məlumatlar da həmçinin bu fəsildə öyrənilmişdir.

**"Yavuz Akpınar və Yeni dövr Azərbaycan ədəbiyyatı"** yarımfəsli bizim tədqiqatlarımızda əsasən Yeni dövr Azərbaycan ədəbiyyatında baş verən milli ədəbiyyatın dəyişməsi, inkişafı, yeni ənənələrin yaranmasının əsas təməl daşını təşkil edirsə, Yavuz Akpınar üçün bu dövr XIX–XX əsrlər Azərbaycan ədəbiyyatının tərkib hissəsidir. Bu fəsildə XIX-XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının inkişaf prosesi, Şimali və Cənubi Azərbaycan ədəbiyyatında yaranan nümunələr, ədəbiyyatların bir-birinə qarşılıqlı təsiri, hər iki ədəbiyyatda aparıcı olan ədəbi nümunələr və nümayəndələr təhlil edilmişdir.

*"XIX əsrin başlarından etibarən ortaya çıxan Rus istilasının təbii bir nəticəsi olaraq Azəri ədəbiyyatı iki qola ayrıldı: Şimalda yaranan Azərbaycan ədəbiyyatı Rus təhsili və qərb mədəniyyətinin təsiri səbəbiylə dövrü həyata görə şəkillənməyə başlayarkən, cənubi Azərbaycandakı ədəbiyyat klassik ənənələr içərisində getdikcə sönükləşib, bir təqlid və nəzirə ədəbiyyatı halını alırdı".*[23]

Yavuz Akpınar Sovet sosialist düşüncəsindən, ideoloji basqılardan uzaq qalaraq, dövrə ictimai-siyasi aspektdən yanaşmış, ədəbiyyatda baş verən prosesləri izləyərək, ədəbi-tarixi prosesin real qiymətləndirilməsinə xidmət etmişdir.

Müqayisələr əsasən ikili xətt təşkil edir ki, birinci istiqamətin əsasını sovet dövrü tədqiqatlarına nəzərən aparılan təhlil və yanaşmalar, ikinci istiqaməti isə müasir dövrə Yavuz Akpınarın tədqiqatları zəminində fikir bildirilmişdir. Araşdırmalar,

---

[22] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ. Həbibbəyli. − Bakı: − Elm, − 2019, − 192 s.

[23] Məmmədli, T. XIX əsr Azərbaycan ədəbiyyatı / T.Məmmədli. − Bakı: − Apostrof, − c.1, − 2010, − 75 s.

müqayisələr Yeni dövr ədəbiyyat tarixində formalaşan stereotip düşüncələrə yeni və spesifik bir yanaşmadır. Yavuz Akpınarın toxunduğu mövzuların bir çoxu Müstəqillik dövründə Azərbaycan ədəbiyyatında aparılan araşdırmaların Sovet dövründə türk elmi-nəzəri düşüncəsindən əksi adlandırmaq olar.

Yavuz Akpınar bu dövrü tədqiq edərkən ədəbiyyat "mümıəssil"ləri ilə yanaşı, ədəbiyyatların qarşılıqlı inkişafı və bir-birinə təsiri məsələlərinə də toxunmuşdur. Qərb üslubunun təsiri ilə M.F.Axundzadənin yaradıcılığı indiyə qədər yaranmış ədəbiyyat nümunələrindən fərqlənirdi, Mirzə Fəthəli Axundzadənin Cənubi Azərbaycan ədəbiyyatına təsiri ilə bu ədəbiyyatda da canlanma yaranırdı.

"*M.F.Axundzadə yaradıcılığı, bədii irsi dəfələrlə araşdırmalara cəlb olunmuş hər dəfə fərqli yanaşmalar yeni baxış tərzi ilə ədəbi mühitdə özünə yeni can qazanmışdır. Təkcə Azərbycanda deyil, Azərbaycandan kənarda bu sahə ilə məşğul olan tədqiqatçılar mövcud olmuşdur. Yavuz Akpınar Türkiyədə ilk dəfə M.F.Axundzadə irsini tədqiqata cəlb edən, ədəbiyyat xadimlərindən biridir".*[24]

Yavuz Akpınar Yeni dövr Azəri ədəbiyyatında yaranan yeniləşməni Rus-avropa təsirinin nəticəsi olaraq qiymətləndirir. Yeni dövr ədəbiyyatına təsiri haqqında yazırdı: *"Yeni Azəri ədəbiyyatı, rus məktəblərində oxuyan və ya Rusca vasitəsiylə asrı ədəbiyyatla alaka təsis edən azəri münəvvərləri arasında təşəkkül etdi".*[25]

Yavuz Akpınar birmənalı olaraq Cənubi və Şimali Azərbaycandakı ədəbi həyatı tədqiq edərək, tarixi dövrün gedişatını paralel şəkildə bir-birlərinə təsiri ilə yanaşı, dövrün tələbləri ilə bağlı olaraq ölkələr arasındakı əlaqələri qarşılıqlı şəkildə təqdim etmişdir. "*Yavuz Akpınar Azərbaycan ədəbiyyatına hər zaman bir bütün kimi yanaşmışdır - onun üçün Şimal və Cənub bölgələri*

---

[24] Kərimova, P. Yavuz Akpınarın təqdiqatlarında Mirzə Fətəli Axundzadənin komediyalarının təhlili", Al- Farabi Sosial Bilimler dergisi,− 30 avqust 2019, − 122 s.

[25] Akpınar Y. Mirza Feth-Ali Ahund-zadə. (Bütün yönleriyle.) dok.tez. − Erzurum: − 1980, − 15 s.

*ədəbiyyatda birləşir”.*[26]

Yavuz Akpınar Cənubi Azərbaycanda yeni dövrə keçidin ədəbiyyatda daha zəif inkişaf etdiyini, qərb təsirinin Şimali Azərbaycanın ədəbi-mədəni həyata təsiri ilə dəyişib inkişaf etməsini və bu təsirin Cənubi Azərbaycanda doğurduğu nəticələr haqqında ətraflı söz açır.

Bu dövrdə “*Şifahi xalq ədəbiyyatı ilə klassik ədəbiyyat ənənələri bir-birinin içinə girmişdi*[27]”. Şimalda Qərb ədəbiyyatının təsiri ilə yaranan yeni janrlarla yanaşı, təriqət ədəbiyyatı, aşıq ədəbiyyatı nümunələri də yaranmaqda davam edirdi. Cənubi Azərbaycanda Aşıq şeir tərzi yazılı ədəbiyyatda möhkəmlənmiş özünün ən parlaq dövrünü yaşayırdı.

Şimalda qərbin təsiri ilə yaranan yeni əlifba yaratmaq arzusu, bu dövrdə üç əsas ideologiyanı formalaşdırdı: “*Türkiyə və İsmayıl Qaspıralının təsirinə bağlı olaraq Türkçülük cərəyanı, Türkiyə, İran və digər İslam ölkələrinin təsiri ilə İslamçılığın və nəhayət Rusiya ilə əlaqəli olaraq çağdaş siyasi və sosyal cərəyanlar.*”[28]

Bunun nəticəsi idi ki, 28 may 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə yaranan ilk türk dövləti, “*Ziya Göyalpın memarı olduğu “Türkləşmək, İslamlaşmaq, Müasirləşmək”.* [29] düsturu altında birləşdi. Əlbətdə, bu düstur ədəbiyyata da təsirsiz ötüşmədi.

Yavuz Akpınar XIX əsr və XX əsrin 20-ci illərini Azərbaycan dövlətinin, millətinin, ədəbiyyatının ən parlaq dövrü hesab etmişdir. Araşdırmalarında bu dövrün ədəbiyyatını Türkiyə ədəbiyyatı ilə birlikdə, Rusiya Türklərinin ədəbiyyatı ilə də müqayisə etmişdir.

Bir sıra ziyalılarda ortaq dilin yaradılması arzusu, gənclərin təhsil alması, mətbuat, milli ideoloji dəyərlər və onun ədəbiyyatda

---

[26] Məmmədli, T. XIX əsr Azərbaycan ədəbiyyatı / T.Məmmədli. − Bakı: − Apostrof, − c.1, − 2010, − 23 s.

[27] Akpınar, Y. “XIX ve XX yüzyıllarda Azeri edebiyyatı” / Y.Akpınar. − Ankara: − Türk Dünyası El Kitabı, −2. bs., − 1992, − 8 s.

[28] Akpınar, Y. Azəri Türklərinin orta doğunun siyasi və kültürəl həyatındakı rolu. 21. Yüzyılda Türk Dünyası Jeopolitiği. Muzaffer Özdağ’a Armağan,/ Y.Akpınar. − 4 c., − Ankara: − ASAM, − 2003, − 75-93 s.

[29] Yenə orada, 87

əksi, bu dövrün əsas prioritetini təşkil etmişdir.

Tədqiqatın ikinci fəsli **“Sovet dövrü Azərbaycan ədəbiyyatı Yavuz Akpınarın elmi-nəzəri düşüncəsində”** adlanır. Bu fəsil 2 yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **“Sovet dövrü Azərbaycan ədəbiyyatının ilkin mərhələsi (20-50-ci illər) və Yavuz Akpınarın ədəbiyyat konsepsiyası” adlanır.** Burada Yavuz Akpınarın ədəbiyyat konsepsiyası və Sovet dövründə Azərbaycan ədəbiyyatında formalaşan düşüncələr əsas meyar olaraq götürülmüşdür.

Yavuz Akpınarın tədqiqatlarında təsvirçilik, bədii mətni əhatəli təqdim etmək xarakteri yoxdur. O, Azərbaycan ədəbiyyatına, xüsusən sovet dövrü Azərbaycan ədəbiyyatına, eləcə də qədim və orta əsrlər, yeni dövr ədəbiyyatına sovet ədəbiyyatşünaslığının münasibətinə əksərən tənqidi yanaşma ifadə edə bilir. Yavuz Akpınarın tədqiqatları üçün ədəbi prosesi ictimai-siyasi hadisələr kontekstində dərk və dəyərləndirmə meyili güclüdür.

Yavuz Akpınar tədqiqatlarında Azərbaycan ədəbiyyatına münasibəti həm də metodoloji müstəviyə çıxarır. O, öz mövqeyini ifadə etməkdə sərbəstdir. Qarşısında ideoloji sədlər yoxdur. Türkiyənin bu ideoloji basqıdan kənar olması, Azərbaycan ədəbiyyatına dair araşdırmalarında sovet dövrünün tədqiqatlarına istinad onun ədəbiyyatı qiymətləndirmədə müstəqil düşüncə və elmi konsepsiya mövqeyindən çıxış etməsinə mane olmur. Yavuz Akpınar sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığının qənaətlərini və sovet dövrü ədəbiyyatını tarixilik prinsipi ilə dəyərləndirir.

Yavuz Akpınarın ədəbiyyat konsepsiyası əsasən ortaq ədəbiyyatlar, ümumtürk düşüncəsi üzərində qurulmuşdur ki, Sovet dövründə Azərbaycan ədəbiyyat bu məfhumlardan uzaq idi, var olan düşüncələr isə müvafiq şəkildə susdurulurdu. Yavuz Akpınar yazırdı: “*Fəqət bilirik ki, bu səhv münasibət “mənimsəmələr”, “sahib çıxmalar” hər an Türk boyları arasında mədəni bir mübahisənin qapılarını aça bilər. Onsuz da Rusların planladıqları da budur”.*[30]

[30] Akpınar, Y. Son Dönem İran Türkçesi’nde Türkiye Türkçesi’nin Etkileri / Y.Akpınar. – VII. Milletler Arası Türkoloji Kongresi.–- İstanbul: – 8-12.11.1999.

Sovet siyasi rejiminin, xüsusən XX əsrin 50-ci illərinin ortalarına qədər bütün ədəbi-mədəni, elmi, siyasi-ictimai düşüncədə türkçülük konsepsiyasına qadağa qoyur, bunun əvəzində ədəbi-elmi və ictimai-siyasi düşüncədə azərbaycançılıq baxışlarını yeritməyə çalışırdılar.

Yavuz Akpınar Sovet dövründə formalaşan Azərbaycançılıq məfkurəsi, Türkçülük və Azərbaycançılıq konsepsiyasına yanaşmaları müqayisəli müstəvidən incələmişdir.

"*1985-ci ildən sonra ən çox Azərbaycandakı rəsmi tarix anlayışı tənqid edilmişdir. Stalin zamanına qədər istifadə edilən (1935-ci ilə qədər) "Türk", "Azərbaycan türkü", "Azəri türkü", "Azərbaycan müsəlmanları", "Qafqaz müsəlmanları" və s. adlandırmaların danışılan tarixdən sonra istifadələrinin qadağan edilməsi və "Azərbaycan" adının bu bölgədə yaşayan insanların soy adı olaraq istifadə edildiyi bildirilməkdədir".*[31]

Onun tədqiqatlarını əsas götürərək, Sovet dövrünün bütün türk dünyasına təsirləri və bu təsirin Türkiyə-Azərbaycan arasındakı ədəbi-mədəni əlaqələrə təsirləri araşdırmamızın əsas prespektivlərini təşkil edir. Dövrün ideoloji çərçivələrindən kənara çıxaraq dövrə yanaşmaları bədii və elmi dəyər zəminində aparılmışdır. Bu dövrlə bağlı apardığı araşdırmalarda, tədqiqatlarda, yeni nəşrləri ilə zamana ən dəyərli töhfəsini vermişdir.

Sovet dövrünün azərbaycançılıq düşüncəsində "türkləşmə" amilinə yer olmadığını, əksinə, onları bir-birini inkar edən və guya hətta, türkçülüyün xalqın müstəqil inkişafını inkar etdiyini şüurlara yeritməsinin siyasi-ideoloji əsaslarını yaxşı bilir. Buna görə də Azərbaycan ədəbiyyatına dair tədqiqatlarında bu mövqeyin əksinə gedir, türkçülük düşüncəsini konsepsiyasının elmi əsası kimi görür.

Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Məhəmməd Əmin Rəsulzadə irsinin tədqiqi, arxiv sənədlərinin nəşri, mühacirət dövrü ədəbiyyat nümunələrinin tədqiqi bu dövrün qaranlıq səhifələrinə işıq salmaqla yanaşı, gənc tədqiqatçılar üçün də əsas mənbə rolunu oynayır.

---

[31] Akpınar, Y . Azeri edebiyyatı araştırmaları/ A. Yavuz. – Erzurum: – Dergah yayınları, – 1994. – 24 s.

“**Sovet dövrü Azərbaycan ədəbiyyatında yeni keyfiyyət mərhələsi və Yavuz Akpınarın tədqiqatları”** adlanan ikinci yarımfəsildə müəllifin bu dövrlə bağlı araşdırmaları daha çox dövrün ədəbi mənzərəsinə verilən qiymətə münasibət idi. Yavuz Akpınarın araşdırması 1994-cü ildə işıq üzü görmüşdür ki, bu da hələ Sovet düşüncəsinin güclü olduğu və bunu müdafiə edən ziyalıların mövqeyinə münasibət idi. Bu fəsildəki mövzular müəllifin dövrləşdirmə konsepsiyasının sonuncusu olub, Şimali Azərbaycanda bu mərhələni yenidənqurma mərhələsi olaraq qiymətləndirirsə, Cənubi Azərbaycan ədəbiyyatına yanaşmaları ədəbi prosesdən daha çox ədəbiyyatdakı mövzulara nəzərən aparılmışdır.

Sovet dövrü Azərbaycan ədəbiyyatının hər iki mərhələsi Yavuz Akpınarın araşdırmalarında əhatə olunur. O, Sovet dövrünün həm birinci (1950-ci illərin birinci yarısına qədərki), həm də ikinci mərhələsini (yeni keyfiyyət mərhələsini) araşdırmışdır.

Sovet dövrü Azərbaycan ədəbiyyatında yaranmaqda olan yeni keyfiyyət mərhələsi “*Azərbaycan ədəbiyyatının bu tarixi mərhələsi iki mühüm istiqaməti əhatə edir – ədəbiyyatda milli-mənəvi özünüdərkə qayıdış və istiqlal*”.[32] Şimali Azərbaycanda Milli özünüdərkə qayıdış və istiqlal mövzuları poeziyada, nəsrdə ədəbi nümunələrdə geniş vüsət almışdı. Tarixdəki münaqişələrə səbəb olan Azərbaycandakı Türk varlığı ilə Erməni məsələsi və türk mədəniyyətinin ermənilər üzərindəki təsirləri haqqında qeydləri ilə də qarşılaşırıq.

Bununla yanaşı Cənubdakı ədəbiyyatın varlığını davam etdirməsi, Cənubda yazılan mövzularda Şimalda baş verən hadisələrə (20 Yanvar hadisələri), yaranmaqda olan əsərlərə və eləcə də dil, vətən həsrəti, vətənin birliyi, bölünməzliyi mövzularına daha çox yer verilirdi.

Bu fəsil daha çox bizim ədəbiyyatşünaslıqda “yeni keyfiyyət mərhələsi” kimi müəyyənləşən dövrə həsr olunmuşdur. Bu tip

---

[32] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri/ İ. Həbibbəyli. – Bakı: – Elm, – 2019. –354 s.

əsərlərində o, 60-80-ci illər ədəbiyyatını tədqiq və təbliğlə məşğul olmuşdur.

Azərbaycan ədəbiyyatının bu mərhələsi olduqca zəngindir və həqiqətən, keyfiyyət baxımından sovet dövrünün əvvəlki mərhələsindən fərqlənir. Bu mərhələdə ədəbiyyat ideoloji siyasətin sərhədlərindən çox kənara çıxır. Yavuz Akpınar üçün də, əsas olaraq, bu mərhələ məhz bu cəhəti ilə seçilir. Yavuz Akpınar bu dövr ədəbiyyatını qiymətləndirərkən daha çox onu əvvəlki mərhələdən fərqləndirən xüsusiyyətlər üzərində dayanır. Ədəbiyyatın nə dərəcədə estetik prinsiplərə söykəndiyini, ideoloji reseptləri nə dərəcədə rədd edə bildiyini önə çəkir.

Əlbəttə, türk ədəbiyyatşünasının sözü gedən dövrün ədəbiyyatını bütövlükdə izləmək imkanı olmamışdır. Buna görə də daha çox yazılarında Azərbaycan ədəbiyyatşünaslığının və tənqidinin araşdırmalarına istinad etmişdir.

60-80-ci illər tədqiqatlarında ən səciyyəvi cəhətlərdən biri də odur ki, əsasən ədəbiyyatşünaslıq və tənqid materiallarını əsas götürsə də, o, ədəbi prosesin tendensiya və istiqamətlərini, demək olar ki, düzgün müəyyənləşdirə və türk ədəbi mühitinə təqdim edə bilmişdir.

Bu mərhələdə bizim ədəbiyyatşünaslığımızda “aşkarlıq və yenidənqurma mərhələsi” kimi müəyyən edilən 80-ci illərin ortalarından sonrakı dövr ədəbiyyatındakı spesifik cəhətləri onun “açıqlıq və yenidəqurma” politikasının ədəbiyyata gətirdiyi xüsusiyyətlər kimi təqdim olunur.

Yavuz Akpınarın sovet dövrünün hər iki mərhələsinə dair tədqiqatlarının həm fərqli, həm də metodoloji cəhətdən üstünlüklərindən biri də yazılarında müntəzəm olaraq “Bütöv Azərbaycan” konsepsiyasına sadiq qalmışdır.

Yavuz Akpınar, xüsusən 60-cı illərdən sonra getdikcə möhkəmlənən və artan bu əlaqələri faktoloji zənginlik sferasında təqdim edir. Məhz bu cəhət onun Azərbaycan ədəbiyyatını “bütöv Azərbaycan ədəbiyyatı” kimi dərk və ifadə imkanlarını ortaya qoyur.

*"Bu dövrdə yetişən şəxsiyyətlərin önəmli bir qismi 1926-1937-ci illər arasında Sovetlər birliyində müxalif ziyalıların terorla susdurulduğu ideolojik təəssübkeşliyin qurbanı olmuşdurlar".*[33]

Bu dövrün ədəbi mənzərəsi, ziyalıları və digər ədəbiyyatlara təsirləri haqqında danışan Yavuz Akpınar, Azərbaycan ədəbiyyatının bu mərhələsi ilə də tədqiqatlarını hələlik ki, sonlandırır.

Tədqiqatın üçüncü fəsli **"Azərbaycan – Türkiyə ədəbi əlaqələri və Cənubi Azərbaycan ədəbiyyatı Yavuz Akpınarın tədqiqatlarında"** adlanır. Bu fəslin birinci paraqrafı **"Azərbaycan ədəbiyyatı tarixinə ümumtürk ədəbiyyatı zəminində baxış"** adlandırılmışdır. Türkiyə ədəbi-nəzəri fikrində və Yavuz Akpınarın yaradıcılığında Azərbaycan ədəbiyyatına türk xalqları ədəbiyyatının bir qolu kimi yanaşılır. Bu ədəbiyyatın öyrənilməsi bir neçə istiqamətdən türk ədəbi-nəzəri fikri üçün maraqlı və eyni zamanda, zəruridir:

Birincisi, Azərbaycan ədəbiyyatının tarixi başlanğıcı ümumtürk ədəbiyyatından keçir. Bu cəhət türk xalqları ədəbiyyatının tarixi köklərini ortaq məcrada araşdırmağı zəruri edir.

İkincisi, ümumtürk ədəbiyyatından differensiallaşmaya keçiddə (anadilli ədəbiyyatlara keçiddə) Azərbaycan ədəbiyyatının yerinin dəqiqləşdirilməsi ciddi elmi mahiyyət kəsb edir.

Yavuz Akpınar Azərbaycan ədəbiyyatında ümumtürk ədəbiyyatını prototürk düşüncələri, ortaq başlanğıcın yarandığı gündən son ümumtürk ədəbiyyatı nümunəsinin yarandığı günə kimi olan zaman çərçivəsindən qiymətləndirmişdir.

Azərbaycan ədəbiyyatının öyrənilməsi türk xalqlarının ədəbi-mədəni əlaqələrinin həm tarixi köklərini, həm müasir durumunu təsəvvür etməyin əsas vasitələrindən birinə çevrilir.

Ədəbiyyatşünaslığımız sovet dövründə ədəbiyyatımızın başlanğıcını ortaq türk ədəbiyyatından başlamağı gerçəkləşdirə bilməmişdir. Bu istiqamətdə 20-ci illərdə görülən işlər sonrakı mərhələlərdə təkzib edilmişdir.

---

[33]Akpınar Y . Azeri edebiyyatı araştırmaları / A. Yavuz. – Erzurum: – Dergah yayınları, – 1994. – 104 s.

Yavuz Akpınarın Azərbaycan ədəbiyyatının tarixini ümumtürk kökünə bağlayaraq tədqiq etməsi, ilk növbədə, onun sovet metodoloji sisteminə tənqidi yanaşması ilə bərabər 20-ci illərdə başda Mehmet Fuad Köprülünün konsepsiyasının davamı olaraq Azərbaycan ədəbi-nəzəri fikrində formalaşmış doğru ənənənin davamıdır. Bütövlükə isə Türkiyə elmi-nəzəri düşüncəsindən irəli gəlir.

Yavuz Akpınarlının ədəbiyyatımızın tarixini ümumtürk başlanğıcından daha əvvələ prototürk mədəniyyətinə bağlaması da onun ənənəyə yaradıcı yanaşmasının əlamətidir və metodoloji cəhətdən özünü doğruldur.

Ədəbiyyatşünaslığımızda ümumtürk ədəbiyyatından milli ədəbiyyatlara keçid mərhələsinin elmi əsasları ilkin olaraq Mehmet Fuad Köprülünün adı ilə bağlıdır. Yavuz Akpınarın fikrincə Fuad Köprülünün başlamış olduğu ümumtürk ədəbiyyatı konsepsiyasını İsmayıl Qaspıralı davam etdirmişdir.

Yavuz Akpınar orta əsrlərin anadilli ədəbiyyatını differensiallaşmanı təsdiq edən faktların əlamətdar xüsusiyyətlərin çərçivəsində yox, daha çox onları ümumtürk kökünə bağlayan, ortaqlığı şərtləndirən xüsusiyyətləri aramağa üstünlük verir. Başqa sözlə, İzzəddin Həsənoğlu, Nəsimi, Məhəmməd Füzulinin Azərbaycan ədəbiyyatının nümayəndələri olması məsələsinə tədqiqatçı bir qədər geniş baxır. Onların yaradıcılığında türk düşüncə sisteminin təzahürlərini aramağa üstünlük verir. Belə bir qənaətə gəlmək olur ki, onun axtarışları millət, xalq məfhumlarından kənar olan, daha geniş bir kontekstdə, ümumtürk ədəbiyyatından, ortaq islam mədəniyyətlərindən öz ruhunu, başlanğıcını götürürdü.

Yavuz Akpınarın elmi düşüncəsində "ümumtürk ədəbiyyatı" anlayışı təkcə türk xalqlarının mədəniyyətlərinin başlanğıcını ifadə edən bir konsepsiyanın ifadəsi kimi başa düşülmür. Daha geniş mənada dərk edilir və differensiallaşmadan – anadilli ədəbiyyatların formalaşması və inkişafının bütün mərhələlərini də öz içərisinə alır. Məsələyə bu cür baxış metodoloji xarakteri ilə türk xalqlarının düşüncə, mədəniyyət birliyini əsaslandırmağa istiqamətlənir və mahiyyət etibarı ilə sovet ədəbi düşüncəsində formalaşdırılan hər

bir türk xalqının ayrıca, müstəqil bir inkişaf yolu keçməsinə dair ideoloji konsepsiyanın əleyhinə çevrilir.

İkinci yarımfəsildə **"Azərbaycan və Türkiyə ədəbi əlaqələrinin öyrənilməsində milli ədəbiyyatların qarşılıqlı təsiri problemi"** sistemli şəkildə təhlil olunur**.** Ədəbiyyatların bir-biri ilə qarşılıqlı əlaqəsi və təsirlər, bunun əsasında yaranan nümunələr, ədəbiyyatın mədəni-ictimai həyata təsiri öyrənilmişdir. Tahirə Məmməd Yavuz Akpınarın Türkiyə və Azərbaycan ədəbiyyatları arasındakı əlaqələrlə bağlı müəllifin tədqiq etdiyi problemləri aşağıdakı şəkildə təsnif edir:

1. *"Türkiyə şair və yazıçılarının yaradıcılıq ənənələrinin Azərbaycan ədəbiyyatında təzahürü;*

2. *Türkiyə ədəbiyyatı Azərbaycan mətbuatında və ədəbiyyatşünaslığında;*

3. *Türk coğrafiyasında milli şüurun oyanışı və təbliği məqsədilə Azərbaycan teatr truppalarının Türkiyə dramaturgiyasına müraciəti;*

4. *Azərbaycan ədəbiyyatında Türkiyənin təsvir və tərənnümü, Türkiyə mövzusu;*

5. *Türkiyə, Şimali və Cənubi Azərbaycan ədəbi əlaqələrinin gələcək perspektivləri və strategiyası".*[34]

Qeyd etmək istərdim ki, bu təsnifatın davamı da var. Ümumtürk ədəbiyyatı ilə başlayan əlaqələr bugünkü günə kimi davam etməkdədir.

İstər Şifahi xalq ədəbiyyatı, istərsə də klassik ədəbi nümunələrin yaranması ilə başlayan əlaqə və təsirlər. XIX əsrdə özünün ən yüksək zirvəsinə çatmışdır.

Yavuz Akpınar Türkiyə-Azərbaycan ədəbi əlaqələrinin tarixinin öyrənilməsində də maraqlı olmuş, xüsusən XIX və XX əsrdə milli ədəbiyyatların bir-birinə təsirini, xüsusən Türkiyə ədəbiyyatının Azərbaycan ədəbiyyatının inkişafındakı rolu məsələsi üzərində təfsilatlı dayanmışdır.

---

[34] Muradov N., Özkaya Y. Yavuz Akpınar. Armağan / N. Muradov, Y.Özkaya. − Ankara: −Bengü, − 2018, − 121 s.

*"O dövrdə, Bakı xanlarının nəslindən bir elm adamının, İstanbulda bir Türk xaqanına, bir xəlifəyə əsər təqdim etməsi təsadüf olaraq görünə bilməz; əksinə çox mənalı bir davranışdır. Abbasquluağanın əsərlərində Rus istila və əsarətinə qarşı milli şüuru oyandıracaq fikirlər olduğunu göz qabağında tutarsaq, bu hərəkətlərin siyasi bir mənası da ola bilər".*[35]

Ancaq ədəbi-mədəni əlaqələr istiqamətində onun gördüyü əsas işlərdən biri Azərbaycan ədəbiyyatının Türkiyədə ədəbi-elmi mühitə hərtərəfli təqdim edir. Bu təqdimatlar Azərbaycan ədəbiyyatının Türkiyədə tanınmasında mühüm rol oynamışdır.

Lakin, bir faktı vurğulamaqda fayda var. Bəzən müəllif "Azərbaycan ədəbiyyatında Yunus Əmrə" [36] məqaləsində Azərbaycan ədəbiyyatı və türk ədəbiyyatını qarşılıqlı şəkildə araşdırırsa, "Azərbaycan − Türkiyə ədəbi əlaqələri baxımından Zəlimxan Yaqubun şeirləri"[37] məqaləsində türklük ruhunun təsiri ilə Zəlimxan Yaqubun yaratdığı şeirlər tədqiq edilmişdir. Zəlimxan Yaqubun şeirlərinin türk oxucusuna, ədəbiyyata təsiri barəsində qeydlər aparmamışdır.

Bu və buna bənzər bir çox faktlar var ki, dissertasiya işində o problemlərin nədən qaynaqlandığı, indiyə kimi görülən işlər, Yavuz Akpınarın araşdırmalarında bəhs etdiyi və gələcək hədəflər olaraq qarşıya qoyduğu məqsədlər təfsilatı ilə özünün ifadəsini tapır.

Türkiyə və Azərbaycan ədəbiyyatlarının qarşılıqlı öyrənilməsinə, ədəbiyyatların bir-birinə təsiri və bunun nəticəsində yaranan ədəbi nümunələrin araşdırılmasına ciddi ehtiyac var.

Bu fəsildə biz aydın görürük ki, Yavuz Akpınar Azərbaycan ədəbiyyatının Türkiyədə təbliği və təqdim edilməsi işini həyata keçirir. Lakin, Türkiyə − Azərbaycan ədəbi əlaqələrinin Azərbaycan kontekstindən aparılması və Türkiyədə bu sahədə aparılmış bir tədqiqat nümunəsinə belə rast gəlməməyimiz, bizdə belə düşüncə

---

[35] Akpınar Y. Mirza Feth-Ali Ahund-zadə. (Bütün yönleriyle.) dok.tez. Erzurum: 1980, 254s.

[36] Akpınar, Y . Azeri edebiyyatı araştırmaları/ A. Yavuz. − Erzurum: − Dergah yayınları, − 1994, − 201 s.

[37] Akpınar, Y. Azərbaycan-Türkiyə ədəbi əlaqələri baxımından Zəlimxan Yaqubun şeirleri. − Ərzurum: − Kardaş Edebiyatlar, − 1992, Sayı: −21, −4-14s.

yaradır ki, Türkiyədə Azərbaycan ədəbiyyatının yetərincə tanınmamış və təbliğatı doğru istiqamətdən aparılmamışdır.

Tədqiqat işinin sonuncu yarımfəsli **"Yavuz Akpınarın Cənubi Azərbaycan ədəbiyyatına dair araşdırmaları bütöv Azərbaycan kontekstində"** adlanır. Cənubda yaranan Azərbaycan ədəbiyyatı nümunələri, onu yaradan ədəbiyyat xadimləri, Cənubda yaranan ədəbiyyatın keçdiyi çətin və məşəqqətli yol bu fəsildə öyrənilmişdir. Azərbaycan ədəbiyyatı tədqiq edilərkən iki istiqamətdən: Şimali və Cənubi Azərbaycan olaraq öyrənilməsinə baxmayaraq, bütöv Azərbaycan konsepsiyası altında tədqiq edilməlidir. Bizim üçün Yavuz Akpınarın araşdırmasını dəyərli edən, eləcə də bugünkü gündə Azərbaycan ədəbiyyatı tarixlərində aparılan araşdırmalardan seçilən və ona zənginlik qatan ədəbiyyatımıza verdiyi dəyərin bariz nümunəsi olaraq, ədəbiyyatlarımızı bütöv konteksdən incələməsidir. Azərbaycan ədəbiyyatına yanaşmaları hər hansı bir çərçivəyə sığmayaraq bütöv Azərbaycan və bütöv azərbaycan dili, vahid düşüncə prizmasından öyrənilmişdir.

İki ayrı dövlətin nəzarətində olmasına baxmayaraq, hər iki Azərbaycan arasındakı ədəbi əlaqələr heç bir dövrdə tamamilə kəsilməmişdir. "*Hələ Sovet ideologiyasının hakim mövqe olan bir vaxtda, Yavuz Akpınar Şimali və Cənubi Azərbaycana səfərlər etmiş, əlaqələr qurmuş, hər iki ədəbi mühiti araşdırmış və Türkiyədə Cənubi Azərbaycan ədəbiyyatının tanınması sahəsində, "Qardaş ədəbiyyatlar" dərgisi vasitəsi ilə də mühüm işlər görmüşdür*".[38]

Cənubi Azərbaycan mövzusu onun əsərlərində həm Cənubi Azərbaycanda gedən ədəbi prosesi elmi təhlil obyektinə çevirməklə, həm cənub, həm şimal ədəbiyyatlarının spesifikasını və müştərək cəhətlərini təyinə çalışmaqla, həm də cənublu və şimallı sənətkarların ədəbi-mədəni əlaqələrini təhlil obyektinə çevirməklə ifadə olunur.

Cənubi Azərbaycan ədəbiyyatında aktuallıq yaradaraq, ədəbiyyatı söykökündən uzaqlaşdıran bir önəmli fakt da iki dillilik məsələsidir. Buna baxmayaraq, "Ədəbiyyat sərhəd tanımır" kitabında

---

[38] Kərimova, P.Yavuz Akpınarın Cənubi Azərbaycan ədəbiyyatına dair araşdırmaları, bütöv Azərbaycan ədəbiyyatı kontekstində/ P.Kərimova.Pedaqoji Universitetin xəbərləri.− 2016, № 2,− 77

deyildiyi kimi, "*Bu danılmaz həqiqətdir ki, bütün maneələrə, qadağalara və məhdudiyyətlərə baxmayaraq bədii ədəbiyyat sərhədə tanımamış, Azərbaycan xalqının mənəvi bütövlüyünü, mənəvi varlığını qoruyub saxlamışdır".*[39]

Cənubi Azərbaycanda yaşıyıb-yaradan Məhəmmədhüseyn Şəhriyarın səsi ümumtürk dünyasının səsi olmuşdur. Beləliklə, Cənubi Azərbaycanı öz buxovlarından qurtarmağa çalışan səs olaraq qiymətləndirilmişdir. "*Məhəmməd Hüseyn Şəhriyar kimi Cənubi Azərbaycan şairinin sovet Azərbaycan ədəbiyyatında təbliğ edilməməsi Cənubi Azərbaycan ədəbiyyatının "özgələşmə"sinə atılan addımlar idi".*[40]

Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı hazırki zamanda kifayət qədər mənbə olsa belə, Xeyrulla Məmmədov, Mirzə İbrahimovun, Rəhim Əliyev, Almaz Məmmədova, Teymur Əhmədovun, Rüstəm Əliyevin –zamanında apardığı araşdırmalar və bu gün davam edən Pərvanə Məmmədlinin, Esmira Fuadın, Lətifə Mirzəyevanın tədqiqatları aradakı əlaqələri isti saxlayaraq, bugünkü gündə ədəbi birliyi qoruyub saxlamağa yönəlmişdir. Türkiyədə bu missiyanı üzərinə götürən Yavuz Akpınar "Qardaş ədəbiyyatlar" dərgisi, eləcə də öz əlaqələri ilə Şimali Azərbaycan ədəbiyyatı və Cənubi Azərbaycan ədəbiyyatı arasında daim bağ olmuş, onları bir-birlərinə bağlamağa xidmət etmişdir.

Bu fəsildə sistematik olaraq həm Şimal və Cənubi Azərbaycan ədəbiyyatları arasındakı əlaqələr həm də, Yavuz Akpınarın bu əlaqələrdə rolu öyrənilmişdir.

"Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" adlı dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqat prosesində əldə edilmiş elmi ümumiləşdirmə və nəticələr aşağıdakı kimi təqdim edilmişdir:

"Yavuz Akpınar və Azərbaycan ədəbiyyatı problemləri" mövzusu mahiyyət etibarı ilə Türkiyə ədəbi-nəzəri fikrində Azərbaycan ədəbiyyatının keçdiyi tarixi yola elmi münasibətin ifadəsini nəzərdə tutur.

---

[39] Qəribli, İ. Ədəbiyyat sərhəd tanımır / İ.Qəribli. - Bakı: Elm və Təhsil, - 2013, - 3 s.

[40] Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. [II cild] / B.Əhmədov.- Bakı: −Apastrof çap evi, −2010, − 94 s.

Türkiyə ədəbi-nəzəri fikri, o cümlədən Yavuz Akpınarın yaradıcılığı ideoloji basqılardan azad olduğu üçün onun Azərbaycan ədəbiyyatına baxışları metodoloji baxımdan sağlam münasibət sayılmalıdır.

Keçən əsrin 70-ci illərindən Azərbaycan ədəbiyyatının tədqiqi və təbliğinə start verən alim elmi və bədii material qıtlığı ilə üzləşir. Buna görə də onun tədqiqatları bəzən Azərbaycan sovet ədəbiyyatşünaslığının təsiri altında qalır. Çünki, xüsusən yeni dövr Azərbaycan ədəbiyyatına dair məqalələrində o daha çox Şimali Azərbaycandakı ədəbiyyatşünaslıq materiallarına istinad edir.

İkincisi, onun elmi-nəzəri düşüncəsi Türkiyə ədəbi mühitində formalaşdığı üçün əksər hallarda bədii materiala müstəqil analitik münasibət önə keçir.

Akpınarın tədqiqatlarında sovet dövrünün ilk mərhələsi ilə bağlı ümumiləşdirmələrin elmi cəhətdən həqiqəti ifadə etməsi, metodoloji doğruluğu müstəqillik dövründə bu illərin ədəbiyyatı ilə bağlı aparılan araşdırmalardakı qənaətlərlə də təsdiq olunur.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**


1. Yavuz Akpınarın Cənubi Azərbaycan ədəbiyyatına dair araşdırmaları bütöv Azərbaycan konteksində. Pedaqoji Universitetin elmi xəbərlər. 2016, № 2, s. 76-84
2. Yavuz Akpınarın düşüncəsində Türkiyə-Azərbaycan ədəbi əlaqələri. "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfrans. Bakı, 14-15 noyabr 2016-cı il, s. 432 (tezis)
3. Yavuz Akpınarın düşüncəsində Türkiyə-Azərbaycan ədəbi əlaqələri. Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal. 2016, № 4, s. 206-209
4. Yavuz Akpınar M.Ə.Rəsulzadə irsinin mühacirət dövrü araşdırıcısı kimi. Bakı Slavyan Universitetinin elmi əsərlər. 2018, № 1, s. 224-229
5. Yavuz Akpınar Klassik Azərbaycan ədəbiyyatının araşdırıcısı kimi. Ankara Uluslararası Bilimsel Araştırmalar Kongresi. 4-6 avqust 2019, s. 439-444
6. Yavuz Akpınar Türkiyə-Azərbaycan ədəbiyyatları arasında ədəbi-mədəni körpüdür. YTÜ Universiteti VI Yıldız Uluslararası Sosyal Bilimler Kongresi.12-13 aralık 2019, s. 2265-2268
7. Türk Dünyası ensiklopediyalarında Azərbaycan ədəbiyyatının yeri və rolu məsələləri (Yavuz Akpınarın tədqiqatları əsasında).Kara deniz konqresi, 2019, s. 625-630
8. Qədim və orta əsrlər dövrünün aktual məsələləri Yavuz Akpınarın tədqiqatlarında. Azərbaycanşünaslığın aktual problemləri. X Beynəlxalq elmi konfransın materialları. 7 may 2019, s. 258-261
9. "Qardaş ədəbiyyatlar" jurnalında Azərbaycan ədəbiyyatı məsələləri (Yavuz Akpınarın məqalələri əsasında). Al-Farabi 5-ci Beynəlxalq Sosial Elmlər Konfransı, 1-4 avqust 2019, s. 81-83

10. Yavuz Akpınarın tədqiqat mövqeyindən Türkiyə-Azərbaycan və İran əlaqələri. Ankara Uluslararası Bilimsəl araştırmalar kongres, 4-6 avqust 2019, s. 495-496
11. Yavuz Akpınarın Cənubi Azərbaycanda milli şüurun formalaşmasının ədəbiyyatda izləri. YTÜ Universiteti VI Yıldız Uluslararası Sosyal Bilimler Kongresi.12-13 aralık 2019, s. 365-366
12. Yavuz Akpınar tədqiqatlarında Mirzə Fətəli Axundzadənin komedialarının təhlili. Al-Farabi Sosial Bilimlər dərgisi. 30 avqust 2019, s. 121-131
13. Yavuz Akpınarın tədqiqatları əsasında milli mətbuatımızın geniş spektrdan təhlili. KİEVkonqresi Taras Shevchenko IV beynəlxalq sosial bilimler konqresi. 14-15 aralık 2019, s. 406-407
14. Türk elmi-nəzəri düşüncəsində azərbaycanın milli-kimlik şüuru. Мир Науки, Культуры, Образования, 30 aprel 2020, № 2 (81), s. 550-552
15. Yavuz Akpınarın Araşdırmalarında Namıq Kamalın Azərbaycan Elmi-Ədəbi İrsindəki İzləri. Filologiya məsələləri, 2021, № 12, s. 329-339

Dissertasiyanın müdafiəsi 25 aprel 2025-ci il tarixində saat 12:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27-Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31 AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA-nın Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR Prezidenti yanında AAK-ın (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03.2025.

Kağızın formatı: A5

Həcm: 41367

Tiraj: 100 nüsxə